## Paşa Talıblı- 60

*Əziz oxucular!*

*Bu günlərdə "80-cilər" ədəbi nəslinin istedadlı nümayəndələrindən olan, Azərbaycan Yazıçılar Birliyinin üzvü, qəriblikdə yaşayan şair Paşa Talıblının 60 yaşı tamam oldu.*

*Paşa Talıblı (Talıblı Paşa Ziyəddin oğlu) 13 mart 1961-ci ildə BorçalınınBolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. Ali təhsilini Bakı Dövlət Universitetində alıb.*

*Yaradıcılığa məktəb illərindən başlayan yubilyarımız uzun illərdir ki, Rusiyanın Volqoqrad şəhərində yaşamasına baxmayaraq bu gün də müntəzəm olaraq respublika mətbuatında şeirləri ilə çıxış edir.*

*Biz də "Art" səhifəsi olaraq hörmətli şairimizi 60 illik yubileyi münasibəti ilə təbrik edib, bir neçə yaradıcılıq nümunəsini sizlərə təqdim edirik.*

***

**"...nəfəs var,**
**çox şükür çox şükür!"**
*(O. Vəli)*

And olsun, and olsun, qardaş,
gülə-çiçəyə and olsun!
... and olsun şair deyiləm,
bəxtə gerçəyə and olsun!

...and olsun vaxtın darına,
ağaca, onun barına.
...ötən durna qatarına,
qurda, böcəyə and olsun!

..and olsun işığa, şama!
Şair deyiləm...oxşama!
...dünənki saleh axşama,
gələn gecəyə and olsun!

...eh kimsə deyir, deyirəm-
eləcə şeir deyirəm!
...and olsun şair deyiləm,
Haqqa - ucaya and olsun!

***

Gecənin əli yox, ayağı yoxdu...
Canıma yapışmış yosundu gecə.
...sevmək var gecənin birində hələ,
hələ dərd çəkməyə uzundu gecə.

...uzun gecələrdə mən kiməm, axı?—
nə elə çaparam əməlli-başlı
nə elə minməyə atım da yoxdu.
...hardasa üstümdə tanrı kölgəsi,
hardasa öz kölgəm altımda yoxdu.

...gecələr özümə qayıtmaq çətin,
gecələr özümdən qaçıram...olmur.
Gündüz dərdləridi gecə dərdləri...
Gündüzlər çəkməyə macalım olmur.

...gecələr yatıram üzü dərdimə,
özümü dərdimə bükürəm, qardaş!
...gündüzlər çəkməyə həvəsim olmur,
mən dərdi gecələr çəkirəm, qardaş.—
...mən harda gizlənim bu gecələrdən?

...bu dərdin əlindən hara qaçım mən,
bəlkə qaçım burdan orda gizlənim?
...mən harda gizlənim bu gecələrdən?
Mən özüm-özümdən harda gizlənim?

...şer yazmaq günahmı? günahlarımı
sağımda-solumda mələklər yazır.
...başımın üstündə dar ağacıdı,
altında həmişə ölümüm hazır—
...mən harda gizlənim bu gecələrdən?!

***

Məni qürbətə şer atdı,
qubar tökən çəni keçdim.
...köç elədim söz boyunca-
gündüzü, gecəni keçdim.

...kiminə bir zarafatdı,
mənə də Siratdı şer!
Məni qürbətə şer atdı...
Elə bil zər atdı şer!

...dünyanın qara damında
gecələr şamı diridi.
...qəribanə qəriblikdə
mən ölü, hamı diridi.



Taparmı kimsə ha gəzsin?
lap altı ay arasın da!
...Məni qürbətə şer saldı
Sibir - Altay arasında!

***

*(Y. Əmrəyə)*

...Adamı aşiq eləyən
bircə gecədə Yunusdu.
...nə dersə ayətlər olur,
bais heçə də Yunusdu.

...hər şeyin üzü ömrədi,
ilahi hökmə, əmrədi!
...hara baxırsan Əmrədi,
bax gör necə də Yunusdu.

...uçurtduğum quşa dənəm,
yarı ruham, yarı tənəm!
...məndən aşağıda mənəm,
məndən ucada Yunusdu.

***

...Gecənin məhrəm üzünə
gün olan bilir mən kiməm.
...baxdığı güzgülər göynən
tən olan bilir mən kiməm.

...biləndə göy enib...gedən,
əyninə geyinib gedən,
özündən geniyib gedən-
gen olan bilir mən kiməm.

...bilməyənlər atam, bilməz!
Fəryadam mən, dadam...bilməz.
...mən kiməm hər adam bilməz,
mən olan bilir mən kiməm.

***

Tapdadı içimi atlı qarışqa,
tapmadı içimi adlı qarışqa-
Qağayı burnutək duzlaşıb içim.

Göylərə yaraşır elə göy adı...
Mənim şeirlərimelegiyadı,
mənim şeirlərimbaşsağlığıdı.

Öldü,sevə-sevə barama qurdu-
bəxtəvər başına baramaqurdu,
bəxtəvər başına-hazır evin var.

Göynədir qafamı buz kimi sürgün...
Adsız şairləri qabaqda bir gün
atsız yəhərlərin günü gözləyir.

***

Həm aşiqəm, həm dərvişəm...-
mən bir gülün butasıyam.
...mən özümün zamanımda
ötələrin ötəsiyəm.

...qaradan, ağdan gəlmişəm,
bir ulu dağdan gəlmişəm.
...mən enib haqdan gəlmişəm,
dönüb haqda itəsiyəm.

Mən həm məndə həm haqdayam...
...qələmdəyəm, varaqdayam.
...mən özümdən qabaqdayam,
mən özümü ötəsiyəm.

Mən bir canam...birimmi var?
...məndə ölüm-dirimmi var?
Mənim ayrı yerimmi var?
Könüllərdə bitəsiyəm.

Mən dünyaya bildim gəldim...
Gəlişim min ildi...gəldim!
...bir gün olur gəldim, gəldim,
bir gün olur gedəsiyəm.

***

Mənim taleyimin bir yönü yoxdu...
Yönsüz taleyimnən çox kürəm indi.
...söz mənim ölkəmdə şahlıq eləyir!
Sözün qulluğunda nökərəm indi.

İşim bir sözəcənökərçilikdi...
Söz məni buyurur - çağırır yaman.
...sözün qulluğunda nökərəm, neylim,
torbam sökük - sökük çarığım yamaq.

Neylim, zaval yoxdu olmayan qula...
Mən ki köhnə sözə təzə nökərəm!
...mənim bu dünyada sözdü taleyim,
söz məndə şah olub, sözə nökərəm!

İşim-gücüm sözə nökərçilikdi...
Lütf ilə dözürəm oyununa, neylim!
...Tanrı buta verib almışam sözü,
almışam mən sözü boynuma, neylim!

***

Bir bax yuxarıdan, Tanrı,
gözünə dəyirəmmi, gör!
...gör, sənə hardan baxıram,
gözümü döyürəmmi, gör!

...biriydin, yenə birsənmi?
Yenə o köhnə sirsənmi?
...bax, gör məni görürsənmi,
görməyə dəyirəmmi, gör!

...əyilməz qaşım...istəsən!
...qan olmaz yaşım...istəsən!
Sən yenə başım üstəsən...
Nəsə heç deyirəmmi, gör!

***

...torpağın özü yaddısa,
onun havası da yaddı.
...yaddı burda yazdığım şer,
şair həvəsim də yaddı.

...yad kimi keçir yanımdan
vaxt elə keçir...bilmirəm!
Kimlər vaxtında doğulur,
kim vaxtsız köçür...bilmirəm!

...doğmalıq yoxdu heç nədə,
doğma heç nə yoxdunəsə.
...burda hamı yad doğulur,
doğma doğulmur, deyəsən!

...mən burda yadam torpağa,
mən burda yadam hamıya!
...dünyada yeri yoxdusa
yad olur adam hamıya!

**Paşa Talıblı**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**